# Homerə uduzan Hesiod



■ Səxavət Sahil

Antik dünyanın ölməz söz ustadlarından olan Homer özündən əvvəl və sonra yaşayan şairlərin demək olar ki, hamısını kölgədə qoyub. Təbii ki, bunun səbəbi onun müəllifi olduğu qəbul edilən "İliada" və "Odisseya" əsərləridir. Bu əsərlər dünya ədəbiyyatı tarixində nə qədər yer tutsa da, onun ən böyük qiyməti məncə, bu cümlələrdir: "İliada" və "Odisseya" dastanı vahid yunan xalqının yaranmasına səbəb oldu, tayfaların birləşməsini zəruri etdi". Bu iki əsər ilkin düşüncə, mifologiya, tarix və s. üçün əhəmiyyətli olmaqla yanaşı həm də istinad mənbəyi kimi qəbul olunmaqdadır. Yəni əli heç bir fakta çatmayan araşdırmaçılar ordakı hadisələrdən, təsvirlərdən yararlanaraq hansısa ciddi qənaətə gəlirlər. Sonralar tərtib olunan yunan mifologiyası haqqında kitablarda Homerin məlum dastanlarına çoxlu sayda istinadlar var. Lakin o dövr üçün əvəzsiz mənbə kimi əsərləri ən çox istinad olunan Hesiodu unuduruq. Bəzən mifologiya kitablarında Hesioda aid olan hansısa mifik süjetin mənbəyini yanlış olaraq Homerin əsərləri kimi göstərilir. Bunun səbəbi isə Homerin şair kimi Hesioddan daha çox tanınması, onun dastanlarının poetik və ictimai-sosial önəm kəsb etməsidir. Homerlə Hesiodun əsərləri arasında müxtəlif fərqli tərəflər var. Elmi araşdırmalar son olaraq belə bir qənaətə gəlmişdir ki, bu iki sənətkar arasında zaman fərqi iki yüz ilə qədərdir. Şəxs olaraq Homerin əsərlərində özü haqında ciddi fakt kimi nəyəsə rast gəlmək mümkün deyil. Lakin Hesiod öz əsərlərində necə deyərlər özünü ələ verir. O "Teaqoniya" (Tanrıların yaranması) və "İşlər və günlər" əsərində özündən danışır. İndiki Kiçik Asiyaya, Yunanıstan sahillərindən gəldiyini yazır, nəslinəcabəti özü və ailəsi haqqında, dünya görüşü, ictimai-sosial baxışı haqqımda məlumat verir.

Onların oxşar və fərqli cəhətlərindən kifayət qədər müzakirə açmaq olar. Hətta üslubların və təsvirlərinin fərqindən də danışa bilərik. Lakin Hesiodun əsas fərqi onun əsərlərindəki süjetlərin, mifik obrazların daha dolğun olması, tanrıların necə və hansı səbəblə meydana gəlməsidir. Bu nüans ilk baxışdan ciddi görünməsə də, olduqca əhəmiyyətli faktdır.

Bildiyimiz kimi, qədim Yunanıstanda tanrılar panteonu vahid bir sistem olub. Olimp sakinləri dünyada mövcud olan digər qədim xalqlarda olan tanrılar sistemindən mükəmməlliyinə görə fərqlənib. Homerin dastanlarını oxuyanda tanrılar haqqında müəyyən qaranlıq məqamlara rast gəlirik. Tanrıların hansı zərurətdən meydana çıxması, hansı tanrının hansından yaranması tam dəqiqliklə göstərilmir, Olimp panteonunun sakinlərinin "tərcümeyi-halını" oxuya bilmirik. Burda Homeri günahlandırmaq fikrim yoxdur, sadəcə diqqətli oxucu üçün bu məsələlər aydın olmalıdır. Hesiodun əsərində isə yuxarıda göstərdiyim faktlar tam aydınlığı ilə ifadə olunub.

Bu fərqlərlə bağlı antik ədəbiyyat araşdırmaçıları müxtəlif fikirlər yürüdürlər. Bu fikirlər arasında daha çox diqqət çəkən məsələ Hesiodun miflərin kökünə, yaranmasına bələd olmasıdır. Hesodun mifik süjetləri Homerin süjetlərindən fərqlənir. Hesiodun süjetləri Kiçik Asyanın daha qədim sakinləri olan Het tayfalarına məxsus mifik süjetlərlə səsləşir. Ehtimal var ki, Şumerlərdə meydana gələn dünya haqqında ilkin təsvirlər, formalaşan düşüncələr qərbə doğru hərəkət edib, müxtəlif dövrlərdən keçərək qədim yunanlara gəlib çatıb. Araşdırmaçıların belə qənaətə gəlməsi bir çox suallara aydınlıq gətirməklə yanaşı, eyni zamanda yeni polemikaya da səbəb olur. Düşüncələr yeni istiqamətdə yönəlir. Belə nüansları nəzərə alanda Hesiodun dəyəri Homerdən daha çox olur. Lakin müqayisə zamanı bu cür üstünlüklər nəzərə alınmır. Nəticədə isə üstünlüklərinə baxmayaraq Hesiod Homerə "uduzur".

WWW.KASPI.AZ 19 oktyabr 2019